# Azərbaycanda bu gün tarixi Zirvə görüşü başlayır




**Beynəlxalq münasibətlər sisteminin fəal üzvlərindən birinə çevrilən Azərbaycan qarşılıqlı hörmətə əsaslanan praqmatik xarici siyasət yürütməsi ilə də diqqət mərkəzindədir. Ermənistanın işğalçılıq siyasəti nəticəsində ərazisinin 20 faizini itirməsinə və ciddi xarici təhdidlər qarşısında qalmasına baxmayaraq, rəsmi Bakı mövcud geosiyasi reallıqda milli maraqlarının təmin olunmasına yönəlmiş siyasət həyata keçirməklə yanaşı, ziddiyyətli maraqlara malik güc mərkəzləri ilə də faydalı siyasi əməkdaşlıq edir. Ən əsası, qısa zaman kəsiyində ciddi iqtisadi uğurlara nail olan Azərbaycan nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməklə və bəşəri dəyərlərin inkişafına dəstək verməklə dünyanın vacib aktorları arasında özünəməxsus yer tutmuşdur.**

> ***Yarım əsrdən çoxdur ki, Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliği ilə məşğuldur. Dünyanın ən böyük təşkilatlarından olan Qoşulmama Hərəkatı dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır. Qoşulmama Hərəkatı beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşü keçiriləcək və Azərbaycan 2019-2022-ci illərdə bu quruma sədrlik edəcək. Xatırladaq ki, bu qərar Qoşulmama Hərəkatının 2016-cı il sentyabrın 13-18-də Venesuelanın Marqarita adasında keçirilən Zirvə görüşündə üzv ölkələr tərəfindən yekdilliklə qəbul olunmuşdu.

Bu gün Qoşulmama Hərəkatı BMT-dən sonra ən çox dövləti öz sıralarında birləşdirən siyasi platformadır. Belə ki,1961-ci ilin sentyabr ayında keçirilmiş Belqrad konfrasında təsis olunmuş, dünyada sülhün təminatında və təhlükəsizliyin gücləndirilməsində böyük rol oynayan Qoşulmama Hərəkatı 120 ölkəni hərbi bloklarda iştirak etməmə prinsipi ilə ətrafında birləşdirmişdir. Təşkilatın yaranmasına keçmiş Yuqoslaviyanın o zamankı rəhbəri İosif Broz Tito, Misir Prezidenti Camal Əbdül Nasir və Hindistanın Baş naziri Cəvahirləl Nehru arasında keçirilmiş görüşlər təkan vermişdi. Əsas məqsəd isə Şimali Atlantika Alyansı ilə (NATO) Varşava Müqaviləsi ölkələri arasında kəskin qarşıdurmanın mövcud olduğu həmin dövrdə baş verə biləcək toqquşmalardan kənarda qalmaq idi. Qoşulma-ma Hərəkatının əsas prinsipləri hələ 1955-ci ildə, yəni QH yaranmazdan əvvəl İndoneziyanın Bandunq şəhərində keçirilmiş beynəlxalq konfrans zamanı elan edilmiş “Bandunq prinsipləri”dir.

Xüsusilə qeyd olunmalıdır ki, Qoşulmama Hərəkatına üzv olan ölkələr dünyanın enerji təhlükəsizliyinin təminatında da mühüm çəkiyə malikdir. Bu ölkələr hər gün dünya neft bazarlarına milyonlarla barrel xam neft ixrac edirlər. Yəni dünyaya gündəlik neft ixracının yarısından çoxu Qoşulmama Hərəkatına üzv olan ölkələrin payına düşür. Bu isə o deməkdir ki, hərəkat üzvlərinin müasir dövr üçün böyük əhəmiyyət daşıyan təsir rıçaqları var və təşkilat çərçivəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi hər bir üzv ölkənin mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir. Hərəkat özündə 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirir. Beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair beynəlxalq hüququn əsas prinsipləri ilə uyğunluq təşkil edən “Bandunq prinsipləri”nə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət, xalqların bərabərliyi, dövlətlərin daxili işlərinə qarışmamaq, dövlətlərin ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı fəaliyyətdən və güc tətbiqindən imtina etmək, qarşılıqlı maraq və əməkdaşlığı təşviq etmək, habelə ədalət və beynəlxalq öhdəliklərə hörmət etmək və digər bu kimi mühüm məsələlər daxildir. Hərəkatın üzvü olan hər bir dövlət məhz bu prinsiplərə bağlı olduğunu bildirməlidir. Qeyd etmək yerinə düşər ki, mövcud olduğu 50 ildən artıq müddət ərzində hərəkata üzv dövlətlər ortaq prinsip və dəyərləri qoruyub saxlamış və qarşılıqlı əməkdaşlığa gətirib çıxaran fəaliyyət üçün ortaq zəmin yaratmaq bacarığı nümayiş etdirmişdir.

Politoloqların sözlərinə görə, yüksələn dinamizmə malik olan təşkilat üzv dövlətlər arasında əlaqələrin intensivləşməsi üçün imkanlar yaradır ki, bu da dövlətlərə eyni cəbhədə yer almaq, onların digər vacib platformalarda dəstəyini təmin etmək imkanı verir. Qoşulmama Hərəkatının Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi üçün əhəmiyyətli platforma olması da məlumdur. Azərbaycanın bu Hərəkatda iştirakı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində haqlı mövqeyimizin üzv dövlətlərin diqqətinə çatdırılması baxımından da çox əhəmiyyətlidir. Artıq bu istiqamətdə özünü doğrultmuş bir yanaşma da mövcuddur. Belə ki, Qoşulmama Hərəkatının 2016-cı ildə Venesuelada keçirilən sammitində qəbul edilmiş yekun sənəddə iştirakçı dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı prinsipi ilə həll edilməsinin zəruriliyini göstərmiş və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməsinə çağırmışdılar. Oxşar mövqe hərəkat üzvləri tərəfindən cari ilin iyul ayında Venesuelanın Karakas şəhərində keçirilən Nazirlər Şurasının yekun sənədində də ifadə edilmişdi.

Xatırladaq ki, Azərbaycan 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür və 2019-2021-ci illərdə bu təşkilata sədrlik edəcək. Prezident İlham Əliyevin 2019-cu il 11 fevral tarixli sərəncamında vurğulanmışdır ki, Azərbaycanın Qoşulmama Hərəkatında iştirakı onun beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq proseslərinə daha fəal cəlb edilməsinə geniş imkanlar açmışdır. Eyni zamanda, Azərbaycanın müxtəlif dövlətlərlə, o cümlədən Latın Amerikası, Asiya və Afrika ölkələrinin çoxu ilə ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafı üçün əlverişli şərait formalaşmışdır. Məlumdur ki, Azərbaycan hərəkata üzv olan bir neçə ölkədə çoxlu sayda sosial, humanitar və inkişaf layihələrini dəstəkləyir və həyata keçirir. Bundan başqa, rəsmi Bakı xalqlar arasında inkişaf etməkdə olan mədəniyyətlərarası dialoq, tolerantlıq və qarşılıqlı anlaşmaya da xüsusi əhəmiyyət verir. Təsadüfi deyil ki, 25-27 aprel 2016-cı ildə Azərbaycan BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna evsahibliyi etmişdi. Göründüyü kimi, bölgədə və beynəlxalq arenada özünəməxsus yer tutmasına imkan verən çoxspektrli xarici siyasət kursu Azərbaycanın mövqelərinin möhkəmlənməsinə şərait yaradır.

Ümumiyyətlə, Qoşulmama Hərəkatı, bütövlükdə, dünyada ədalətli, dinc və sivil qaydada birgəyaşayışın təmin edilməsinə öz töhfəsini verə bilər. Bu baxımdan 2018-ci ildə Bakıda keçirilmiş Qoşulmama Hərəkatının “Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi” mövzusundakı konfransında Prezident İlham Əliyevin vurğuladığı bir fikir olduqca maraqlı və əhəmiyyətlidir. Dövlət başçısı demişdir: “Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də müəyyən dərəcədə oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik”.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sözlərinə görə, Zirvə görüşü müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda təşkil edilən ən mühüm siyasi tədbirlərdən biri olacaq və bu, eyni zamanda, 1989-cu ildə keçmiş Yuqoslaviyada keçirilmiş Belqrad sammitindən sonra Avropada təşkil olunacaq ilk Zirvə Görüşü kimi tarixə düşəcək. Hikmət Hacıyev xüsusilə vurğulamışdır ki, Bakıda keçiriləcək Zirvə görüşü, eləcə də sədrlik həm ölkəmizin əldə etdiyi nailiyyətlərin dünyada daha da tanıtdırılması və təşviq edilməsinə öz töhfəsini verəcək, həm də Azərbaycanın QH-da və ümumən dünyada nüfuzunu, çəkisini daha da artıracaq.

Bir sözlə, Azərbaycan qarşıdakı 3 il ərzində nüfuzlu təşkilata sədrlik edəcək. Hikmət Hacıyevin sözlərinə görə, Azərbaycanın məqsədi üzv dövlətlərlə birgə QH-nın beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə və dayanıqlı inkişafa töhfəmizi artırmaq olacaq. Azərbaycanın nüfuzu, malik olduğu potensial bu məsuliyyətin öhdəsindən layiqincə gələcəyinə inamı daha da artırır. Ən əsası, beynəlxalq münasibətlər sistemində sabit tərəfdaş kimi tanınan Azərbaycan belə bir mötəbər beynəlxalq təşkilata 3 il sədrlik etdiyi müddət ərzində beynəlxalq əlaqələrimizin daha da güclənməsinə gətirib çıxaracağı şübhə doğurmur.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***